# Ölünü güldürən aktyor - Səfəroğlu Bəşir...





Aygün Süleymanova
teatrşünas

**“Ölünün də qıdığı gələr?”- məşhur deyimi artıq məsəl, el sözünə çevrilib. Sadəcə bu deyil, “ölünün də qıdığı gələr?”- aktyor Bəşir Səfəroğlunun sənət diplomu, səhnə devizi kimi qəbuldur.**

Sənətkarın 90 illik yubileyi ərəfəsində Bəşir Səfəroğlunu yad edib, günümüzdən onun gününə nəzər salanda qeyri-ordinar mənzərənin şahidi olduq. Səfəroğlu Bəşir 44 illik həyat tarixçəsini uzun zaman bundan öncə tamamlasa da, sənətkarın yaradıcılıq tarixi hələ də davam edir... Bəşir Səfəroğlu surətinin oxşarına hələ Azərbaycan səhnəsində rast gəlinməyib... Bəşir Səfəroğlu kimi aktyor təkrar olunmayıb...

...Tarixi qeyd: Bəşir Səfəroğlu 11 mart 1925-ci ildə Bakıda doğulub. Yeddi illik təhsilini Bakıda alıb və ailə vəziyyətinin ağırlığı ilə əlaqədar məktəbdən uzaqlaşmalı olub. On dörd yaşlarından şoferlər klubunun dram dərnəyinə gedib. Kiçik intermediyalarda, birpərdəli məsxərələrin tamaşalarında kiçik rollar oynayıb. 1941-ci ilin axırlarında faşistlərlə müharibəyə yollanan Bəşir 1942-ci ildə hərbdən kontuziyalı qayıdıb. Dili tutulub və qulaqları çox ağır eşidib. Bir müddət fəhlə, yük maşınının sürücüsü işləyib. Rejissor Niyaz Şərifov ona məsləhət görüb ki, müntəzəm olaraq teatrın tamaşalarına gəlsin. O, tamaşalara baxmağa başlayıb. Bir müddət sonra isə onu truppaya aktyor qəbul ediblər. Yaradıcılıq ehtirası ilə çırpınan Səfəroğlu həyəcanlanır, daxili iztirablar keçirirdi. Ömrünün bu gərgin çağlarında o, yuxuda bərk həyəcanlanıb və bununla da dili açılıb. Həmin vaxtdan Bəşir Səfəroğlunun zəngin aktyorluq tarixçəsi başlayıb.

Bəşir Səfəroğlu güclü plastikası olan aktyor idi. Aktyorun heç vaxt dəyişməyən, heç bir gücün, fövqəladə hadisənin dağıda bilməyəcəyi “sabit”, “susqun” texnikası onun ən böyük sənətkar silahı idi. O, bu silahın gücü ilə səhnədə daha aktiv, daha canlı olan aktyorları kölgədə qoymağı bacarırdı.

...Tarixi qeyd: Aktyor yaradıcılığında xüsusi yer tutan əsas rolları: Möhsün (“Beş manatlıq gəlin”), Qaradavoy və Çiko (“Keto və Kote”), Usta Məhərrəm, Qoçu Əsgər və Məşədi İbad (“Məşədi İbad”), Uzun və Nəcəf (“Durna”), Qədir və Gülümsərov (“Ulduz”), Səlyanski və Qəhrəman (“Gözün aydın”), Ohan yüzbaşı və Hacı Qara (“Xəsis”), Kazbek (“Kəndimizin mahnısı”), Şulu, Muxtar bəy (“Əlli yaşında cavan” və “Evliykən subay”), Mir İsmayıl (“Qızıl axtaranlar”), Baləmi (“Rəisin arvadı”), Qiya (“Tiflis nəğməsi”), Əli Dinməzov (“Bir dəqiqə”)...

Aktyorun səhnə rollarının xronoloji tarixi onun yaşadığı zamandan daha uzundur, daha dayanaqlıdır. Tarixi qeyddən də gördüyümüz kimi aktyor Üzeyir və Zülfüqar Hacıbəyovun klassik operettalarında, əsasən isə çağdaş dramaturq və bəstəkarların musiqili komediyalarında müxtəlif xarakterli, satirik, yumoristik, məzhəkəli rollarda çıxış edib. Yaradıcılığını təhlil edərkən sənətkarın elə rollarına rast gəlirik ki, bu obrazlar məhz onun əsəridir. Gülümsərov (“Ulduz”) istər teatr səhnəsində, istərsə də filmoqrafiyada B.Səfəroğlunun yaşadığı zamana adekvat yaratdığı mükəmməl obrazdır. Zatən Gülümsərov başqa aktyorun timsalında bizlər üçün yaddır. Qalstuku bu dərəcədə soyuq, reaksiyasız daşıya bilmək, hadisələrə yuxarıdan aşağı yanaşmaq və sonucda yalançı professoru və ya alimliyi mükəmməl ifadə etməklə, nifrət və tənqid yaratmaq Səfəroğlu Bəşirin oyunu ilə mümkün idi.

Və ya... Əli Dinməzov (“Bir dəqiqə”) sanki aktyorun səhnə texnikasının bir qoluna işarə idi. Dinməzovu Bəşir Səfəroğludan yüksək kim yarada bilərdi ki? Əlbətdə, burada rolu düzgün seçim edərək, uyğun aktyora həvalə edən rejissorun da işi tərifələyiqdir. Dinməzov aktyorun susqunluğu ilə tamaşaçını özündən çıxardan, əks təzyiq ilə istədiyinə nail olan rollarından biri idi. Ümumiyyətlə Bəşir Səfəroğlu Dinməzov obrazına xas olan əsas keyfiyyətləri düşünərək deyil, ifa edərək deyil, sadəcə özünün varlığı ilə - səhnəyə addımları ilə yaradırdı.

...Tarixi qeyd: Hacı Kərim (“Hacı Kərimin Aya səyahəti”), Qoçu (“Keçmişin məişət səhnələri”), Nadir və Azay (“Qızılgül”), Murtuzov, Dayandur, Polis rəisi (“Özümüz bilərik”, “Olmadı elə, oldu belə” və “Milyonçunun dilənçi oğlu”), Darçmov (“Səndən mənə yar olmaz”), Firuzbala (“Altı qızın biri Pəri”), Səbrəli (“Bizə bircə xal lazımdır”), Qasiyane (“Tiflis nəğməsi”), Əsgər Nəcəfoviç (“Ləpələr”).

Tarixi qeydin bu sıralamasında qeyd olunan Polis rəisi (“Milyonçunun dilənçi oğlu”) aktyorun mükəmməl səhnə obrazı kimi tarixə çevrilmişdi. Əgər biz aktyorun səhnə tipajlarını təsnif etmiş olsaq, onda bu sırada Polis surətinin ilk sırada olacağına şübhə etmək olmaz. B.Səfəroğlunun zahirindən doğan ciddilik və aktyorun ona əlavə etdiyi məsum qəddarlıq Polis obrazlarını sənətkarın ifasında mükəmməl etmişdir.







Bu tipajların sırasında Sərxoş obrazları da xüsusi yer tutur ki, onlara ən populyar nümunə Azərbaycan kinosunun incisi sayılan “Əhməd haradadır?” filmində Sərxoş rolunu qeyd etmək olar. Aktyorun epizodik yaratdığı Sərxoş filmin ən məzəli, ən gülməli fraqmentinə çevrilə bilib. Ayaq üstə güclə dayanan Sərxoş Bəşir Səfəroğluya məxsus incəliklə, sanki həqiqi sərxoşun bir saniyəlik gününü yaratmış olur.

...Tarixi qeyd: Bəşir Səfəroğlu “Azərbaycanfilm”in istehsal etdiyi “Əhməd haradadır?” və “Ulduz” filmlərində Sərxoş və Gülümsərov, “Tacikfilm”in çəkdiyi “Xoca Nəsrəddinin 12 qəbri” kinolentində Xacə Nəsrəddin rollarını ifa edib.

Onu da qeyd etmək mütləqdir ki, aktyor altmışıncı illərin ortalarında Azərbaycan Dövlət Filarmoniyasında təşkil olunan “Gəlməli, görməli, gülməli” miniatür teatrında xalq artisti Əliağa Ağayev, əməkdar artist Müxlis Cənizadə, aktrisa Ofeliya Abbasova (Məmmədzadə) ilə yanaşı çıxış edirdi. Bu kollektivdə Bəşir Səfəroğlu onlarla satirik obraz yaradıb.

Sənətkarın adının əbədiləşməsi işində ən dəyərli iş rejissor Rauf Kazımovskinin görkəmli gülüş ustası Bəşir Səfəroğlu haqqında eyni adlı bədii-sənədli televiziya filmini yaratması olub. Dövlətin də sənətkara verdiyi qiymət tarixi sənəddir: sənət uğurlarına görə 29 iyun 1964-cü ildə Bəşir Səfəroğluna Azərbaycanın əməkdar artisti, 25 iyun 1968-ci ildə xalq artisti fəxri adları verilib.

Səfəroğlu Bəşir haqqında fikir söyləmək hər yaş kateqoriyasında olan teatr mütəxəssisi üçün maraqlıdır. Onun yaşadığı zamana, səhnəyə baxmaq və bu səhnədə ölünü güldürən Səfəroğlu Bəşiri görmək sonsuz zövqdür....

## Fringe Festivalı



**Rusiyada İrlandiya həftəsi çərçivəsində 16-20 mart tarixləri arasında “Fringe 2015” festivalı keçiriləcək. İrlandiyalı şair, Nobel mükafatı laureatı Uilyam Batler Yeytsin 150 illik yubileyinə həsr olunmuş festivalda “Kikimoro”, “Qızlar və oğlanlar” və “Bəşəriyyət övladları” adlı tamaşalar Qoqol Sənət Mərkəzində, Mayakovski adına teatrın kiçik səhnəsində və Freelabs teatr zalında nümayiş olunacaq.**

**Məkan. Rejissura**

12 mart 2015-ci il tarixindən Perm şəhərində Yuri Lyubimovun xatirəsinə həsr olunmuş “Rejissura məkanı” adlı festival öz işinə başlayıb. Mart ayının 16-dək davam edəcək festivalda “Üç bacı” “Sezuandan gəlmiş xeyirxah” tamaşaları nümayiş olunacaq və Rusiyalı teatr rejissoru Yuri Butusovun teatrsevərlərlə açıq görüşü keçiriləcək.

**Səhnəqrafiya. Freyberqs**

28 mart tarixində A.A.Baxruşin adına teatr muzeyinin əsas binasında Latviya Milli Opera teatrının baş rəssamı Andres Freyberqsin əsərlərindən ibarət “Andres Freyberqs. Səhnəqrafiya” adlı rəsm sərgisi sənətsevərlərin ixtiyarına veriləcək. Qeyd edək ki, Andres Freyberqs bir çox mükafatların sahibidir və 1992-ci ildən Latviya Rəssamlıq Akademiyasının Səhnəqrafiya kafedrasına rəhbərlik edir.




**Niyaz**